# Azərbaycan Xalq Parlamenti

**e-mail:** info@azxp.org **Web:** www.azxp.org

**Xural TV-nin rəhbəri jurnalist Əvəz Zeynallının sağlamlığına və həyatına yaranmış təhlükə ilə bağlı**
**BƏYANAT**

Azərbaycan Xalq Parlamenti özünün 15 aprel 2025-ci il tarixli, "Xural TV-nin rəhbəri jurnalist Əvəz Zeynallının sağlamlığına və həyatına yaranmış təhlükə ilə bağlı" çağırdığı fövqəladə iclasında:

-Əvəz Zeynallının xanımı Məlahət Qüsurinin onun sağlamlıq vəziyyəti ilə bağlı sosial şəbəkələrdə yaydığı məlumatları,

- Xural TV-nin əməkdaşı İlqar Hüseynlinin Əvəz Zeynallının cəzaçəkmə yerində xərçəng xəstəliyinə tutulması və bu faktın həkim rəyləri ilə təsiqlənməsi barədə parlament iclasında etdiyi çıxışı,

-Millət vəkillərinin təkliflərini,

- ABA Media, AzerFreedom TV, Müqavimət TV, Voice of U, Xural TV və Ayvazoğlu TV-nin tamaşaçılarının, sosial şəbəkələrdə xalqımızın müxtəlif sosial qrup və təbəqələrindən olan insanların tələblərini,

-Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 511-ci maddəsinin (Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə) tələblərini nəzərə alaraq və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş "Məhkumların cəza çəkməsinə mane olan ağır xəstəliklərin Siyahısı"nın 2-ci bəndinə (Şişlər) uyğun olaraq,

**BƏYAN EDİR:**

1. Hakimiyyətin ayrı-ayrı məmurlarının qanunsuz hərəkətlərini və bütövlükdə hakimiyyətin xalqımıza qarşı apardığı yanlış siyasəti açıq şəkildə və cəsarətlə ifşa etdiyinə görə şərlənərək həbs edilən Əvəz Zeynallının sağlamlığına və həyatına yaranmış təhlükəyə görə bütün məsuliyyət Azərbaycan hakimiyyətinin üzərinə düşür.
2. Respublikanın bütün ləyaqətli vətəndaşları: siyasi qüvvələr, jurnalistlər, reportiyorlar, ziyalılar, şair və yazıçılar Əvəz Zeynallının təcili azadlığa buraxılıb müalicəsinin təşkil edilməsini təmin etmək məqsədilə səylərini birləşdirsinlər.
3. Ağır xəstəliyə tutulduğuna görə, Əvəz Zeynallı cəzasının qalan hissəsini çəkməkdən azad edilsin və hakimiyyət onun müalicəsi üçün zəruri olan bütün tədbirləri görsün.
4. Xalq Parlamenti Əvəz Zeynallının hüquqlarının tam bərpa edilməsinədək mübarizəsini davam etdirəcək və bu məqsədlə Respublika ictimaiyyətini fəal vətəndaşlıq mövqeyi sərgiləməyə çağırır.

15 aprel 2025-ci il.
Bakı-Brüssel.
Azərbaycan Xalq Parlamentinin sədri: Abid Qafarov.